**“2024–2025-ci tədris ilində icma əsaslı məktəbəqədər təhsil xidmətlərinin təşkili” qrant müsabiqəsi**

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda məktəbəqədər təhsilə cəlb edilmiş uşaqların sayının 50 faizə çatdırılması nəzərdə tutulub. Strategiyanın hədəfinə nail olunması üçün digər tədbirlərlə yanaşı, icma əsaslı təlim qruplarında məktəbəqədər təhsilin təşkilinin qrant vasitəsilə maliyyələşdirilməsi planlaşdırılır. Bu məqsədlə 2024–2025-ci tədris ilində hər hansı səbəbdən məktəbəqədər təhsildən kənarda qalmış uşaqlar üçün icma əsaslı məktəbəqədər təhsil xidmətlərinin təşkili üçün Elm və Təhsil Nazirliyi tərəfindən qrant müsabiqəsi elan edilir.

**Qrant müsabiqəsinin büdcəsi 1 500 000 (bir milyon beş yüz min) AZN təşkil edir.** Qrant müsabiqəsinin büdcəsi dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına artırıla bilər.

**Qrant müsabiqəsində iştirak tələbləri:**

- iştirakçı dövlət ümumi və ya məktəbəqədər təhsil müəssisəsinin rəhbər və ya pedaqoji işçisi olmalıdır;
- iştirakçı vergi ödəyicisi kimi uçota alınmış fiziki şəxs olmalıdır.

**Qrant müsabiqəsində iştirak sənədləri:**

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş “Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası”nın tələbləri gözlənilməklə iştirakçı tərəfindən Forma 1 əsasında hazırlanmış və imzalanmış layihə təklifinin əslinin elektron surəti (PDF);
- iştirakçının şəxsiyyət vəsiqəsinin əslinin elektron surəti (PDF);
- iştirakçının əmək kitabçasının (bütün səhifələr daxil olmaqla) əslinin elektron surəti (PDF);
- iştirakçının VÖEN-i və ona bağlı bank rekvizitlərinin əslinin elektron surəti (PDF);
- layihənin icra olunacağı məkanın qanuni nümayəndəsinin razılıq məktubunun əslinin elektron surəti (PDF).

**Qrant müsabiqəsi aşağıdakı mərhələləri əhatə edir:**

- müraciət mərhələsi;
- qiymətləndirmə mərhələsi;
- qrantların ayrılması mərhələsi.

**Müraciət mərhələsi:**

Bu mərhələdə qrant müsabiqəsinin iştirakçılarına və iştirak sənədlərinə verilən tələblər yoxlanılır. Bütün sənədləri tam və düzgün formada təqdim edən iştirakçılar qiymətləndirmə mərhələsinə keçirlər.

**Qiymətləndirmə mərhələsi:**

- Bu mərhələdə layihə təklifləri aşağıdakı meyarlar əasında qiymətləndirilir:

▪ Problemin qoyuluşu – 15 bal

*Problemin etibarlı mənbələrlə əsaslandırılması, onun benefisiarlar üçün aktuallığı və həll yolunun reallığı*

▪ Gözlənilən nəticələr və görüləcək işlər – 15 bal

*Gözlənilən nəticələrin ölçüləbilənliyi, görüləcək işlərin ətraflı təsviri və aydınlığı, onların problemin həllinə və gözlənilən nəticələrə yönəlməsi, təhsilə və benefisiarlara töhfəsi, icra müddəti, ardıcıllıq və icra mexanizminin yetərliliyi*

▪ İnfrastruktur və icra potensialı – 35 bal

*Layihənin icra olunacağı məkanın maddi-texniki təchizatı və sanitariya-gigiyena vəziyyətinin müvafiq norma və normativlərə uyğunluğu, tərəfdaşlıq və kadr potensialının yetərliliyi*

▪ Maliyyə səmərəliliyi – 25 bal

*Layihənin xərclər smetasının texniki qüsursuzluğu, layihə çərçivəsində görüləcək işlərə və bazar qiymətlərinə uyğunluğu*

▪ Monitorinq, qiymətləndirmə və hesabatlılıq – 10 bal

*Monitorinq, qiymətləndirmə və hesabatlılıq metodologiyasının, onun əsas nəticə və icra indikatorlarının qənaətbəxşliyi*

- Qiymətləndirmə mərhələsində keçid balı 50-dir. Qiymətləndirmə nəticəsində 50 və daha yüksək bal toplamış layihələr növbəti mərhələyə keçir.

**Qrantların ayrılması mərhələsi:**

Bu mərhələdə ən yüksək bal toplayan və qrant müsabiqəsinin büdcəsinə uyğun gələn layihələrə qrant ayrılır.

**Müsabiqəyə müraciət üçün son tarix:** 16.08.2024-cü il

**Sənədlərin qəbulu üçün elektron poçt ünvanı:** alternativxidmet@edu.gov.az
**Ünvan:** Bakı şəhəri, Xətai prospekti 49.

Layihə təklifi forması

CV forması